

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 10 (21.671)

*15 yanvar 2017-ci il, bazar*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyinin keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

2017-ci ildə Naxçıvan Dövlət Universitetinin yaranmasının 50 illiyi tamam olur.

Naxçıvan Dövlət Universiteti 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlamış, 1972-ci ildə həmin filialın əsasında Naxçıvan Dövlət Pedaqoji İnstitutu yaradılmış, 1990-cı ildə isə onun bazasında Naxçıvan Dövlət Universiteti təşkil olunmuşdur. 50 ildə böyük inkişaf yolu keçən universitetin maddi-texniki və tədris bazası yaxşılaşdırılmış, 108 hektar sahədə 16 tədris korpusu, Elektron kitabxana, Konservatoriya, Sosial Xidmət Mərkəzi, Xəstəxana, Olimpiya İdman Mərkəzi, Baytarlıq Təbabəti Klinikası və Tələbə evi yaradılmışdır. Bununla yanaşı, universitetdə media mərkəzi də fəaliyyət göstərir.

Azərbaycanda maarifçiliyin və ali təhsil sisteminin inkişafında özünəməxsus rolu olan Naxçıvan Dövlət Universitetində 1967-1968-ci tədris ilində 3 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, hazırda 57 ixtisas üzrə bakalavr, 46 ixtisas üzrə magistr, 31 ixtisas üzrə doktorant hazırlığı aparılır. Universitetdə konservatoriyanın və dissertasiya şurasının fəaliyyət göstərməsi ali təhsillə yanaşı, mədəni və elmi potensialın da inkişafına səbəb olmuşdur.

Naxçıvan Dövlət Universiteti yüksək ixtisaslı kadrların yetişdirilməsinə, elmi və ali təhsil mühitinin formalaşmasına öz təsirini göstərmiş, fəaliyyət göstərdiyi dövrdə universitetin 30 minə yaxın məzunu olmuşdur. Naxçıvan Dövlət Universitetinin məzunları ölkəmizdə milli dövlət quruculuğunun və təsərrüfat həyatının müxtəlif sahələrində çalışaraq iqtisadi, elmi və mədəni potensialın gücləndirilməsinə layiqli töhfələr verirlər.

Naxçıvan Dövlət Universitetinin muxtar respublikanın ictimai-siyasi, elmi və mədəni həyatında rolunu nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyi geniş qeyd olunsun.
2. "Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 14 yanvar 2017-ci il*

## Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Xüsusi istedadı olan aşağıdakı şəxslərin adları Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılsın və onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülsünlər:

Əliyev Sərxan Rüfət oğlu – Naxçıvan Musiqi Kollecinin tələbəsi, balaban üzrə

Qasımov Pərviz Hüseyn oğlu – Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin şagirdi, şahmat üzrə

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 14 yanvar 2017-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir





Yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" barədə müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq demişdir ki, gənclərin asudə vaxtının səmərəli təşkilində, onların sağlam böyüməsində və gələcəyə hazırlanmasında idmanın mühüm rolu vardır. Çünki cəmiyyətin sağlamlığı insanların, xüsusilə də gənclərin sağlamlığından asılıdır. Bu mənada hər bir gəncə ölkənin gələcəyi kimi baxmaq lazımdır. Muxtar respublikada bu məsələ diqqətdə saxlanılır, gənclərin idmana və təhsilə cəlbi istiqamətində ardıcıl tədbirlər görülür, hər il bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı müşavirə keçirilir, vəzifələr müəyyənləşdirilir. Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında yaradılan müasir təhsil və idman infrastrukturu gənc nəslin bacarığına görə peşə seçiminə və təhsil almasına, müxtəlif idman növləri ilə məşğul olmasına imkan verir. Bu sahədə görülən işlərin nəticəsidir ki, muxtar respublikada sağlam gənc nəsil yetişir. Gənclər zərərli vərdişlərdən və hüquqazidd hərəkətlərdən uzaqdır. Hər il ali məktəblərə qəbul olan gənclərin, eləcə də yüksək bal toplayanların sayı artır, gənclər müxtəlif idman yarışlarında uğurla çıxış edir, muxtar respublika iqtisadiyyatının inkişafına öz töhfələrini verirlər.



Ali Məclisin Sədri sağlam gənc nəslin hazırlanmasında əməyi olanlara təşəkkür etmişdir.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov bədən tərbiyəsi və idmanın inkişafı sahəsində görülən işlər barədə çıxış edərək demişdir ki, muxtar respublikada müasir idman infrastrukturu formalaşdırılmış, uşaq və gənclərin idmanla məşğul olmasına, onların müxtəlif səviyyəli çempionat, turnir və yarışlarda iştirak etməsinə hərtərəfli şərait yaradılmışdır. Muxtar respublikada 2 Olimpiya İdman Kompleksi, 2 Üzgüçülük Mərkəzi, Şahmat Mərkəzi, Atıcılıq Mərkəzi, rayon mərkəzlərində şahmat məktəbləri, uşaq-gənclər idman məktəbləri, stadion və süni örtüklü mini futbol meydançaları, tam orta məktəblərdə müasir idman zalları, olimpiya ağırlıqqaldırma qurğuları və 821 sadə tipli idman avadanlıqları mövcuddur. Bununla yanaşı, 2002-ci ildə Boks, Güləş, Karate-do, Şərq Döyüşü Sənəti, Şahmat, Futbol, Voleybol, Basketbol, 2006-cı ildə Paralimpiya, 2013-cü ildə isə Atıcılıq, Hava və Ekstremal İdman Növləri federasiyaları yaradılmışdır. Ötən dövrdə qonşu ölkələrlə idman əlaqələri genişləndirilmiş, idmançıların muxtar respublika yarışları ilə bərabər, dünya çempionatlarında, beynəlxalq yarışlarda və yoldaşlıq görüşlərində, ölkə birinciliklərində iştirakı təmin edilmişdir. 2016-cı ildə muxtar respublika idmançıları dünya çempionatlarında 1, Avropa çempionatlarında 5, beynəlxalq turnirlərdə 63, Azərbaycan birinciliklərində 39 medal qazanmışlar. Məşqçilərə təlimlər, treninqlər, gənc idmançılara nümunəvi dərslərin keçirilməsi də diqqətdə saxlanılmış, bütün idman növləri və federasiyalar üzrə peşəkar və təcrübəli məşqçilər dəvət edilmiş, komandaların təlim-məşq toplanışları keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Vüqar Səfərov çıxış edərək demişdir ki, muxtar respublikamızda şahmatın inkişafı və onun maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqətdə saxlanılır. Şahmat Federasiyasının üzvləri yaradılan bu şəraitdən səmərəli istifadə edirlər. 2016-cı ildə şahmatın kütləviliyinin təmin olunması, bu sahədə yüksək peşəkarlıq səviyyəsinə malik mütəxəssislərin formalaşdırılması istiqamətində tədbirlər görülmüş, Naxçıvan Şahmat Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93 illiyinə həsr olunmuş Naxçıvan–2016 Beynəlxalq Şahmat Festivalı, Naxçıvan Muxtar Respublika birinciliyi, Naxçıvan şəhərində və rayon mərkəzlərində komanda və şəxsi birinciliklər, eləcə də seçmə yarışlar keçirilmişdir. İyun ayında keçirilən Naxçıvan Şahmat Mərkəzinin açıq birinciliyi FİDE-də beynəlxalq reytinqli yarışlar sırasında qeydiyyata düşmüşdür.

*Ardı 2-ci səhifədə*

Bakı şəhərində keçirilən Dünya Şahmat Olimpiadasında Naxçıvandan 2 şahmatçı Azərbaycan komandasının tərkibində, 1 məşqçi müəllim isə beynəlxalq hakim kimi iştirak etmişdir. Ötən il Dünya Şahmat Federasiyasının qərarı ilə Naxçıvan şəhər şahmatçısı Toğrul Həsənzadə beynəlxalq usta, Babək rayon şahmatçısı Aynur Kətanova FİDE ustası, Culfa rayon Şahmat məktəbinin direktoru Hüseyn Tağıyev FİDE hakimi tituluna layiq görülmüş, şahmat üzrə keçirilən beynəlxalq yarışlarda 2 şahmatçı birinci, 1 şahmatçı üçüncü yerə layiq görülmüş, 13 şahmatçı isə müxtəlif mükafatlar qazanmışdır.

Bədii gimnastika üzrə Azərbaycan Respublikasının idman ustası Humay Qafarova demişdir ki, muxtar respublikada müasir idman infrastrukturunun yaradılması, gənclərin sağlamlığının qorunmasında, onların asudə vaxtlarının səmərəli təşkilində və istedadlı gənclərin üzə çıxarılmasında mühüm rol oynayır. Yaradılan şərait, göstərilən diqqət və qayğı nəticəsində hazırda muxtar respublikada bütün yaş qrupları üzrə bədən tərbiyəsi və idmanla məşğul olan yeniyetmə və gənclərin sayı artmaqdadır. İdmançılar həm ölkə daxilində, həm də ölkədən kənarda, beynəlxalq səviyyəli yarışlarda iştirak edərək muxtar respublikanı layiqincə təmsil edirlər. Yaradılan şəraitdən bundan sonra da səmərəli istifadə olunacağını bildirən Humay Qafarova Naxçıvanda idmanın inkişafına göstərdiyi qayğıya görə muxtar respublika gəncləri və idmançıları adından minnətdarlığını bildirmiş və Ali Məclisin Sədrini doğum günü münasibətilə təbrik etmişdir.

Ali Məclisin Sədri muxtar respublikada bədii gimnastikanın inkişafı və qızların idmana cəlbi sahəsindəki fəaliyyətinə görə Humay Qafarovaya təşəkkür etmiş, qızların bu və digər idman növlərinə marağının artırılması ilə bağlı aid təşkilatlara və federasiyalara tapşırıqlar vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Azərbaycan Respublikasında ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan idman siyasətinin davam etdirilməsi nəticəsində müasir idman infrastrukturu formalaşdırılmış, idman hərəkatı genişlənmiş, Azərbaycan idman yarışlarının keçirildiyi beynəlxalq mərkəzə çevrilmişdir. 2016-cı ilin idman yekunlarına həsr olunmuş tədbirdə çıxış edən ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***"İdmanın inkişafı bizim dövlət siyasətimizdir və idman infrastrukturunun yaradılması prosesi davam edir. Biz gələcək illərdə də bu istiqamətdə işlərimizi davam etdirəcəyik ki, hər bir rayonda idmanla məşğul olmaq üçün ən müasir şərait yaradılsın".***

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasında da əhalinin sağlam həyat tərzinin, xüsusən böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafının təmin edilməsində bədən tərbiyəsi və idmanın roluna böyük əhəmiyyət verilir. Aparılan idman siyasəti idmanın kütləviliyinə nail olmaq, onu inkişaf və təbliğ etdirmək, sağlam nəsil yetişdirmək məqsədinə xidmət edir. Yaradılmış şərait idmanın kütləviliyinə öz təsirini göstərmiş, muxtar respublikamızda müxtəlif beynəlxalq və ölkə səviyyəli yarışlar keçirilmiş, idmançılarımız nüfuzlu yarışların mükafatçıları sırasına düşmüşdür. Bununla yanaşı, uşaq və gənclərin idmana cəlbi istiqamətində də əsaslı işlər görülməkdədir. Hazırda muxtar respublikada 7 yaşdan 18 yaşadək 89 min 995 uşaq və gənc vardır ki, onun da 47 min 399-u oğlan, 42 min 596-sı qızdır. Oğlanlardan 30 min 385-i, yaxud 64 faizi, qızlardan isə 7 min 546-sı, yaxud 18 faizi idmanla məşğul olur. Sağlamlıq imkanları məhdud olan uşaq və gənclərdən isə 153-ü idmanla məşğul olur ki, bunun da 105-i oğlan, 48-i isə qızlardır.

Ali Məclisin Sədri demişdir: Əvvəlki dövrlərlə müqayisədə 2016-cı ildə gənclərin idmana cəlbi istiqamətində irəliləyişlər olsa da, aparılmış təhlillər onu deməyə əsas verir ki, yaradılan şəraitdən hələ də səmərəli istifadə olunmur. Nəzərə almaq lazımdır ki, bədən tərbiyəsi və idmanla məşğul olmaq təkcə yarışlarda iştirak etmək və yüksək nailiyyət əldə etmək məqsədi daşımır; bu, eyni zamanda xəstəlik və zərərli vərdişlərin qarşısının alınmasını, əhali sağlamlığının təmin olunmasını da nəzərdə tutur. Bu xüsusatı əsas götürərək ona nail olmalıyıq ki, muxtar respublikada bədən tərbiyəsi və idman sahəsində yaradılanlardan bütün vətəndaşlar, o cümlədən gənclər səmərəli istifadə etsinlər. Ona görə də Gənclər və İdman Nazirliyi, idman federasiyaları muxtar respublikada idman növlərinin inkişaf etdirilməsi, gənclərin idmana cəlbi, idmanın kütləviliyinin artırılması sahəsində fəaliyyətlərini gücləndirməlidirlər.

Muxtar respublikada yaradılan idman infrastrukturunun, o cümlədən idman obyekt və qurğularının qorunması və onlardan səmərəli istifadə üçün Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, idman federasiyaları, şəhər və rayon icra hakimiyyətləri birgə fəaliyyət göstərməlidir. Peşəkar məşqçilərin hazırlanması sahəsində 2016-cı ildə federasiyalar tərəfindən bir sıra işlər görülmüşdür. 2017-ci ildə də Gənclər və İdman Nazirliyi, eləcə də idman federasiyaları məşqçilərin hazırlanması, eləcə də peşəkar məşqçiləri dəvət etməklə muxtar respublikada seminar və məşğələlərin keçirilməsini təmin etməlidirlər.

Bildirilmişdir ki, muxtar respublikada keçirilən idman yarışları, xüsusən də ölkə və beynəlxalq səviyyəli yarışlar gənc idmançıların təcrübəsinin artırılmasında mühüm rol oynayır. Gənclər və İdman Nazirliyi və idman federasiyaları bu cür idman yarışlarının keçirilməsini davam etdirməlidir. Ötən il əksər federasiyaların rayon bölmələri fəaliyyətlərini düzgün qura bilməmiş, gənclərin bölmələrə cəlbi zəif təşkil edilmişdir. İdman federasiyaları bölmələrin fəaliyyətlərini gücləndirməli, federasiyadaxili idman yarışları keçirilməlidir. Rayon icra hakimiyyətləri də bu məsələyə diqqəti artırmalı, istedadlı gənclər həvəsləndirilməli, onların ölkə və beynəlxalq səviyyəli yarışlarda iştirakları təmin edilməlidir.

Ali Məclisin Sədri diqqətə çatdırmışdır ki, ümumtəhsil məktəblərində yaradılan idman infrastrukturundan səmərəli istifadə və onların qorunması sahəsində, eləcə də fiziki tərbiyə fənninin tədrisində nöqsanlar vardır. Təhsil Nazirliyi böyüməkdə olan nəslin fiziki inkişafına, onların sağlamlığına qayğı ilə yanaşmalıdır. Ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinin tədrisinə nəzarət olunmalı, uşaq-gənclər şahmat və idman məktəblərinin fəaliyyəti gücləndirilməli, uşaq və gənclərin asudə vaxtları səmərəli təşkil edilməlidir. Təhsil Nazirliyi və Şahmat Federasiyası Naxçıvan Şəhər Şahmat Mərkəzi ilə rayon şahmat məktəbləri arasında interaktiv dərslərin qrafik əsasında keçirilməsini təmin etməlidir. Gənclər və İdman Nazirliyi hamiliyə götürdüyü Naxçıvan Dövlət Universitetinin Bədən tərbiyəsi və idman ixtisası üzrə peşəkar gənc kadrların hazırlıq səviyyəsinin artırılması üçün zəruri tədbirlər görməlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu ali təhsil müəssisələri və idman federasiyaları ilə birlikdə proqram hazırlamalı, gənclərin idmana cəlbinə diqqəti artırmalı, onların iştirakı ilə yürüşlər və müxtəlif idman tədbirləri keçirməlidir.

Qeyd olunmuşdur ki, muxtar respublikada qızların idmana cəlbinə diqqət artırılmalıdır. Gənclər və İdman Nazirliyi və idman federasiyaları bu sahədə zəruri tədbirləri davam etdirməli, qızların müvafiq idman növləri üzrə federasiyalara cəlbinə nail olmalıdırlar. Gənclər və İdman Nazirliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə məhdud fiziki imkanlı gənclərin muxtar respublikanın idman həyatına daha fəal inteqrasiyası sahəsində tədbirləri davam etdirməli, bədən tərbiyəsi və idmanın bu kateqoriyadan olan şəxslərin reabilitasiyasına və sağlam həyata inteqrasiyasına təsiri ilə bağlı təbliğat işlərini gücləndirməli, Paralimpiya Federasiyasının rayon mərkəzlərində də filialları təşkil olunmalıdır. Bununla yanaşı, imkansız ailələrdən olan uşaq və yeniyetmələrin idman geyim və ləvazimatlarla təmin olunmalarına diqqət edilməlidir. Bədən tərbiyəsi və idmanla məşğul olanların tibbi nəzarət və xidmətlə təminatı da vacib məsələlərdəndir. Gənclər və İdman Nazirliyi İdman Tibb Mərkəzinin bu sahədə fəaliyyətini gücləndirməli, keçirilən yarışlarda tibbi xidmət və hakim nəzarəti təmin edilməlidir.

Muxtar respublikada mövcud Olimpiya İdman kompleksləri öz fəaliyyətlərini gücləndirməli, şəhər və rayon icra hakimiyyətləri yerlərdə yaradılmış şəraitdən, o cümlədən idman qurğu və avadanlıqlarından səmərəli istifadəyə nail olmalıdırlar. İdman federasiyaları, Gənclər və İdman Nazirliyi, şəhər və rayon icra hakimiyyətləri 2017-ci ildə hər bir şəhər və rayon ərazisində keçiriləcək idman tədbirlərinin planını təsdiq edib, icrasını təmin etməlidirlər. Təhsil Nazirliyi Gənclər və İdman Nazirliyi, idman federasiyaları birlikdə məktəblərarası idman yarışlarının və şahmat birinciliklərinin keçirilməsi ilə bağlı tədbirlər planı hazırlayıb icrasına nail olsunlar. Mövcud stadionlardan səmərəli istifadə, eyni zamanda yeni stadionların qurulması və bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsi şəhər və rayon icra hakimiyyətləri ilə Gənclər və İdman Nazirliyinə tapşırılır. İdmanın kütləviliyini təmin etmək üçün təbliğat mexanizmi düzgün qurulmalı, muxtar respublikanın kütləvi informasiya vasitələri bununla bağlı tematik materiallar hazırlamalı, bədən tərbiyəsi və idmanın həyat tərzinə çevrilməsinə çalışmalıdırlar. Muxtar respublikada idmanın inkişafının sağlam gəncliyin formalaşdırılmasındakı rolunu nəzərə alaraq bütün aid təşkilatlar qarşılarında duran vəzifələrin məsuliyyətini dərk edərək bədən tərbiyəsi və idmanın hərtərəfli inkişafına nail olmalıdırlar.

Ali Məclisin Sədri 2016-cı ili nəticələrlə başa vuran federasiyalara təşəkkürünü bildirmiş, 2017-ci ildə fəaliyyətlərində uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri 2016-cı ildə ölkə və beynəlxalq yarışlarda uğurlu nəticələr qazandıqlarına görə 8 idmançıya və 6 məşqçi müəllimə pul mükafatları təqdim etmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Prezident İlham ƏLİYEV: Bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür

***Naxçıvan Muxtar Respublikası yeni ilə uğurla başladı. Muxtar respublika sakinləri ötən ilin nailiyyətlərinin sevincini yaşadığı bir dövrdə Azərbaycan Prezidenti cənab İlham Əliyev Naxçıvana səfər etdi. Dövlət başçısı kimi cənab İlham Əliyevin Naxçıvana sayca 13-cü səfəri də muxtar respublika üçün çox mühüm əhəmiyyət daşıyan obyektlərin istifadəyə verilməsi ilə yadda qaldı.***

Ölkə rəhbəri budəfəki səfərində də muxtar respublikada aparılan quruculuq işlərini yüksək qiymətləndirdi: "Çox şadam ki, Naxçıvan uğurla, sürətlə inkişaf edir, böyük quruculuq, abadlıq işləri aparılır. Son illər ərzində Naxçıvan böyük inkişaf yolu keçmişdir. Naxçıvan şəhərinin abadlaşdırılması, gözəlləşdirilməsi, infrastruktur layihələrinin icrası, bütün şəhər və kəndlərin abadlaşması prosesi onu göstərir ki, respublika möhkəm ayaqda dayanıb. Hesab edirəm ki, bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür. Çünki bütün istiqamətlər üzrə işlər uğurla gedir və gözəl nəticələr var".

Bu, Azərbaycan Prezidentinin muxtar respublika rəhbərinin, eləcə də bütün naxçıvanlıların fəaliyyətinə verdiyi yüksək dəyərdir. Blokadanın çətinliklərinə baxmayaraq, muxtar respublikada böyük quruculuq proqramı gerçəkləşdirilib, Naxçıvan yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu yüksəliş hər gün gözümüz qarşısında baş verdiyindən bizə adi görünür. Ancaq dövlət başçısına adi görünmür. Prezident blokada şəraitində inkişaf və tərəqqiyə nail olmağın çətinliklərini çox yaxşı bilir. Ölkə rəhbəri onu da bilir ki, blokada şəraitində daşı daş üstə qoymaq hər oğulun işi deyil.

Naxçıvan Muxtar Respublikası bir müddət elektrik enerjisi sarıdan çətinliklər çəkib. Ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublikaya sutka ərzində 6-8 saat elektrik enerjisi verilir, qonşu ölkələrdən elektrik enerjisi alırdıq. Kəskin kontinental iqlim şəraiti olan Naxçıvanın mənfi 40 dərəcəyə düşən soyuğundan qorunmaq üçün insanlar qeyri-standart elektrik qızdırıcılarından istifadə etmək məcburiyyətində qalırdılar. Bu da elektrik xətlərinin, transformatorların sıradan çıxmasına səbəb olur, qrafik üzrə verilən elektrik enerjisindən istifadəyə maneçilik törədirdi. Həmin dövrdə Naxçıvanda yaşayıb fəaliyyət göstərən ümummilli liderimiz Heydər Əliyevin şəxsi nüfuzu sayəsində qonşu dövlətlərdən elektrik enerjisi alınmasını təmin etmək üçün təcili tədbirlər görülüb. 1993-cü ilin ortalarında Naxçıvana İran İslam Respublikasından 42 meqavat, Türkiyə Respublikasından 63 meqavat gücündə elektrik enerjisi daxil olub, tələbatçılara sutka ərzində 12 saat elektrik enerjisi verilib.

Naxçıvanın enerji təhlükəsizliyinin təmin olunması ulu öndərimiz Heydər Əliyevin hər zaman diqqət mərkəzində olub. Ümummilli liderimizin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra bu sahədə mühüm tədbirlər həyata keçirilib. Ulu öndərin yolunu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər nəticəsində Naxçıvanın enerji təhlükəsizliyi təmin olunub. 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası təbii qazla işləmə rejiminə keçirilib, 220 kilovoltluq "Babək" yarımstansiyasında əsaslı təmir və yenidənqurma işləri aparılıb.

Həmin il ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası tikilib istismara verilib. Son illər isə muxtar respublikanın mövcud hidroenerji potensialından istifadə edilməklə ekoloji və iqtisadi cəhətdən daha səmərəli olan su elektrik stansiyaları yaradılıb. 2006-cı ilin dekabrında Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası, 2010-cu ilin oktyabrında Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası tikilib. 2014-cü ildə Şərur rayonu ərazisində 20,5 meqavat gücündə "Arpaçay-1", 1,4 meqavat gücündə "Arpaçay-2" su elektrik stansiyaları fəaliyyətə başlayıb. Bu sahədə görülən işlərin davamı kimi 2015-ci ildə Babək rayonu ərazisində Naxçıvan Günəş Elektrik Stansiyası istifadəyə verilib.

Göründüyü kimi, muxtar respublikanın elektrik enerjisi ilə təminatına möhkəm zəmin yaradılıb. İstehsal olunan elektrik enerjisi nəinki daxili tələbatı ödəyir, hətta elektrik enerjisi ixrac etməyə imkan verir. Təkcə bir faktı deyək ki, muxtar respublikamızda alternativ və bərpa olunan elektrik stansiyalarında illik elektrik enerjisi istehsalı ümumi istehsalın 53,4 faizini təşkil edir. Bu göstərici çox nadir ölkələrdə müşahidə olunur. Dünya ölkələri içərisində alternativ və bərpa olunan elektrik stansiyalarında istehsal olunan enerjinin miqdarı ümumi istehsalın 50 faizindən çoxunu təşkil edən cəmi bir neçə ölkə mövcuddur.

Bu stansiyaların açılışında ölkə rəhbəri iştirak edib. Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan səfərlərinə nəzər yetirsək görərik ki, ölkə rəhbərinin hər səfərində enerji təhlükəsizliyinin təmin olunması ilə bağlı mühüm qərarlar qəbul edilib, yeni stansiyalar istifadəyə verilib. Ölkə başçısının budəfəki səfərində təməli qoyulan Ordubad Su Elektrik Stansiyası Naxçıvanın enerji təhlükəsizliyini daha da möhkəmləndirəcək, ixrac imkanlarını artıracaqdır. Azərbaycan Prezidenti ötən səfərlərində olduğu kimi, bu dəfə də Naxçıvanda bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirib, enerji təhlükəsizliyinin təmin olunmasının əhəmiyyətindən danışıb: "Enerji potensialı və enerji təhlükəsizliyi Naxçıvan üçün xüsusi əhəmiyyət daşıyır. Çünki ölkəmizin əsas hissəsi ilə Naxçıvanın coğrafi əlaqəsi yoxdur. Belə olan halda biz mütləq enerji potensialının inkişafına fikir verməliyik. Bu gün Naxçıvan elektrik enerjisi ilə tam təmin olunub və eyni zamanda, enerji ixrac edir. Naxçıvan təbii qazla da tam təmin olunub. Gələcəkdə bərpa olunan enerji növlərinin yaradılmasından, xüsusilə Ordubad Su Elektrik Stansiyasının işə düşməsindən sonra Naxçıvanda enerji məsələləri ilə bağlı bundan onilliklər sonra heç bir problem olmamalıdır".

Enerji təhlükəsizliyinin təmin olunması Naxçıvan Muxtar Respublikasının ümumi inkişafına öz töhfəsini verib. Yeni elektrik stansiyalarının yaradılmasından sonra sənaye müəssisələri işə salınıb, yerli istehsal artıb, nəticədə, Naxçıvanın ərzaq təhlükəsizliyi məsələsi də öz həllini tapıb. Təbii qazın verilməsinin, elektrik enerjisi ilə təchizatın yaxşılaşdırılmasının nəticəsidir ki, biz indi Naxçıvanın bu sərt qışında isti evimizdə oturub son illər yaradılan soyuducu anbarların, istixana komplekslərinin bəhrəsi olan yerli ərzaq məhsullarından istifadə edirik, heç kimə də möhtac deyilik. Odur ki, öz isti evində televizorun qarşısında oturub ölkə başçısının muxtar respublikaya səfərini izləyən, Prezidentimizin Naxçıvanın enerji təhlükəsizliyi ilə bağlı görülən işlər barədə çıxışını dinləyən hər bir sadə naxçıvanlının qəlbindən bu böyük dövlət xadiminə sonsuz minnətdarlıq hissləri keçir.

*Ardı 3-cü səhifədə*



Naxçıvan Muxtar Respublikası tarixən istər içməli, istərsə də suvarma suyuna olan tələbatın tam ödənilmədiyi ərazilərdən olub. Ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublika sakinləri elektrik enerjisi, təbii qaz kimi içməli su sarıdan da korluq çəkiblər. “Şərq qapısı” qəzetinin 1994-cü il 29 yanvar tarixli nömrəsində dərc olunan “İçməli su dərdi” adlı yazıda oxuyuruq: “Bir ildən artıqdır ki, krantların suyu gəlmir. Sakinlər çıxılmaz vəziyyətdə qalıblar. Müraciət etmədikləri idarə, qapılarını döymədikləri vəzifəli şəxs qalmayıb. Ancaq nə fayda, bu vacib işə hələlik bir əncam çəkən tapılmır. Bu qış günlərində içməli su əldə etmək böyük problemə çevrilmişdir. Camaat naəlac qalıb quyu suyundan istifadə edir. Şor və həm də içmək üçün heç cür yararlı olmayan bu su adamların səhhətinə pis təsir edir. Xüsusilə uşaqların sağlamlığını təhlükə qarşısında qoyur”.

Bu məqalədə Naxçıvan şəhərinin problemləri qələmə alınsa da, əslində, bütün muxtar respublikada vəziyyət belə idi. İçməli su problemi hər kəsi düşündürürdü, ancaq bu sahədə əməli tədbirlər həyata keçirilmirdi. Dövlət başçısının diqqət və qayğısı ilə naxçıvanlıların bu problemi də həll olunub. Muxtar respublikada son illər bu sahədə mühüm tədbirlər görülüb. Azərbaycan Prezidenti əvvəlki səfərlərinin birində Naxçıvan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin açılışını edib. Yanvarın 11-də isə Culfa və Şahbuz rayon mərkəzlərinin və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin istifadəyə verilməsi mərasimləri keçirilib. Hər iki rayonda işlərə 2012-ci ildə başlanılıb. Layihəyə əsasən, Culfa şəhərində və Gülüstan kəndində su şəbəkəsinin, Culfa şəhərində isə kanalizasiya şəbəkəsinin tikintisi aparılıb. Şahbuz şəhərinə, Kiçikoba və Daylaqlı kəndlərinə su şəbəkəsi, Şahbuz şəhərində kanalizasiya şəbəkəsi çəkilib. Hər iki rayonda quraşdırılan sutəmizləyici qurğu 2045-ci ilə qədər əhalini və sənaye sahəsini gün ərzində 24 saat ekoloji cəhətdən təmiz su ilə təchiz edəcək. Azərbaycan Prezidenti Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin açılış mərasimindəki çıxışında bu məsələdən də bəhs edib: “Bu gün biz Culfa və Şahbuz rayonlarında içməli su və kanalizasiya layihələrinin rəsmi açılışını qeyd etdik. Bu da çox önəmli layihələrdir. Hər iki şəhərə təmiz, Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su verilməsinə başlanmışdır. Ondan əvvəl Naxçıvan şəhəri su ilə təmin edilmişdir. Bu gün biz artıq digər şəhərlərə də suyun verilməsini təmin edə bildik. Bu da çox önəmlidir. İnsan sağlamlığı üçün əsas amillərdən biri də təmiz sudur. Biz onu da həll etmişik. Bu il Dövlət İnvestisiya Proqramında Naxçıvan Muxtar Respublikasının digər şəhərlərinin su-kanalizasiya problemlərinin həlli məsələləri də öz əksini tapacaq”.



Deməli, yaxın gələcəkdə muxtar respublikanın digər bölgələrinin sakinləri də ekoloji cəhətdən təmiz içməli su ilə təmin ediləcəklər. Qeyd olunduğu kimi, təmiz su insan sağlamlığı üçün çox vacibdir. Bu layihənin həyata keçirilməsi Naxçıvanda insanların sağlamlığına göstərilən yüksək qayğıdan xəbər verir.

Müasir Naxçıvanın əldə etdiyi ən mühüm tarixi nailiyyətlərdən biri də burada güclü ordunun yaradılmasıdır. Azərbaycan Prezidentinin Naxçıvan Muxtar Respublikasına səfərləri çərçivəsində diqqət mərkəzində olan məsələlərdən biri də ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərlə tanışlıqdır. Ölkə başçısı Naxçıvan Muxtar Respublikasına səfərlərinin birində hərbi quruculuq sahəsində burada görülən işləri yüksək qiymətləndirərək deyib: “Ordu quruculuğu sahəsində Naxçıvanda çox böyük işlər görülür. Bu hərbi hissə Azərbaycandakı hər bir hərbi hissə üçün nümunə, örnək ola bilər. Burada olan şərait ən yüksək standartlara cavab verir. Azərbaycan Ordusu məhz bu cür olmalıdır”.

Ölkə rəhbərinin Naxçıvana son səfəri zamanı Fövqəladə Hallar Nazirliyinin zabit və gizirləri üçün inşa olunmuş 48 mənzilli binanın, Əlahiddə Ümumqoşun Ordusunun “N” saylı hərbi hissəsindəki əsgər yataqxanasının və Əsgəri-Məişət Kompleksinin açılışlarında iştirak etməsi, silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış olması Ali Baş Komandanın bu sahəyə xüsusi diqqət yetirdiyinin göstəricisidir.



Dövlət başçısı Naxçıvana budəfəki səfərində də həyata keçirilən ordu quruculuğu tədbirlərindən razılığını və Əlahiddə Ümumqoşun Ordusunun muxtar respublikanı etibarlı qoruduğundan əminliyini ifadə edib: “Bu gün Naxçıvan ordusu istənilən vəzifəni icra etməyə hazırdır, öz sərhədlərini qoruyur və siz burada düşmənlə üz-üzə yaşayırsınız, cəsarətlə yaşayırsınız, rəşadət göstərirsiniz və göstərmisiniz. 1990-cı illərin əvvəllərində Heydər Əliyevin rəhbərliyi ilə naxçıvanlılar öz diyarını qoruya bildilər, düşməni yerinə oturtdular. Bu gün Naxçıvanın hərbi potensialı ən yüksək səviyyədədir. Ən müasir texnika, silah, sursat buraya göndərilir və döyüş qabiliyyəti artır, xidmət şəraiti yaxşılaşır”.

Azərbaycan Prezidentinin bu mövzu ilə bağlı çıxışında bir əminlik vardı. Hiss olunurdu ki, ölkə rəhbəri Naxçıvanın taleyindən narahat deyil.



Bilir ki, özünün yüksək diqqət və qayğısı ilə yaradılan Əlahiddə Ümumqoşun Ordusu muxtar respublikanın sərhədlərini etibarlı müdafiə edir və Naxçıvan əmin əllərdədir.

“Naxçıvanın hərbi potensialı və müdafiə qabiliyyəti daim diqqət mərkəzindədir. Mən çox şadam ki, bu məsələlər də uğurla öz həllini tapır və əlbəttə ki, respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı çox önəmli addımlar atılır. Naxçıvanda sənaye müəssisələri yaradılır, kənd təsərrüfatı inkişaf edir, bir çox kənd təsərrüfatı məhsulları ilə siz özünüz-özünüzü təmin edirsiniz”, – deyən ölkə rəhbəri Naxçıvanda ərzaq təhlükəsizliyi baxımından da nigarançılığın olmadığına işarə edib, muxtar respublikadan, Azərbaycanın düşmənlə sərhədindən ölkəmizin düşmənlərinə, uğurlarımızı görmək istəməyənlərə gözdağı verib.

Prezident İlham Əliyevin muxtar respublikamıza son səfəri Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin açılışı ilə yekunlaşıb. Dövlət başçısının diqqət və qayğısı ilə son illər muxtar respublikada təhsil quruculuğu istiqamətində də mühüm işlər görülüb. Ölkə rəhbəri məktəbin açılış mərasimindəki çıxışında bu sahədə görülən işləri xüsusi vurğulayıb: “Son illər ərzində Naxçıvan Muxtar Respublikasında artıq 200-ə yaxın yeni məktəb tikilib, yaxud da ki, əsaslı şəkildə təmir olunub. Təmirə ehtiyacı olan cəmi bir neçə məktəb qalıb. Əminəm ki, yaxın gələcəkdə bu məsələ də həllini tapacaq”.

Ordu və təhsil quruculuğu Naxçıvanda xüsusi diqqət yetirilən sahələrdəndir. Çünki bu iki sahədə işlər düzgün qurulmasa, dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, ölkəmizin sərhədlərinin və mənəvi sərhədlərimizin qorunmasından söhbət gedə bilməz. Əgər ordumuz ölkəmizin sərhədlərini qoruyursa, təhsilli insanlarımız da mənəvi sərhədlərimizi, müstəqilliyimizi qoruyurlar. Ölkəmizin sərhədlərini qoruyan Azərbaycan gəncidir. O, mütləq təhsilli olmalıdır, tariximizi, keçmişimizi öyrənməli və bilməlidir. O, sərhəddə nə üçün dayandığını anlamalıdır. Anlamalıdır ki, müstəqilliyimizi, son nəticədə isə Azərbaycanımızı qoruya bilsin. Bax, məhz buna görə ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda orduya və təhsil quruculuğuna xüsusi diqqət ayrılır.

Azərbaycan Prezidentinin Naxçıvana bu tarixi səfəri də muxtar respublikamız üçün əlamətdar hadisələrlə yadda qaldı. Ölkə rəhbəri bir sıra sosial obyektlərin açılışını etməklə yanaşı, Naxçıvanın gələcəyi üçün görüləcək çox mühüm işlərin də anonsunu verdi. Bu gün bütün ordubadlılar, bu rayona tez-tez səfər edənlər sevinc içərisindədirlər. Ona görə ki, dövlət başçısı yaxın gələcəkdə Culfa-Ordubad yolunun da yenidən qurulacağını bildirdi. Bu gün biz həm ölkə başçısının Naxçıvana son səfərinin xoş təəssüratının, həm də Azərbaycan Prezidentinin bu fikirlərinin sevincini yaşayırıq: “Nəhayət, biz Naxçıvanın nəqliyyat problemlərinin həlli üçün də çalışırıq. Qeyd etdiyim kimi, Naxçıvan-Təbriz-Məşhəd dəmir yolu fəaliyyətə başlayıb. Bildiyiniz kimi, biz indi İran İslam Respublikası və Rusiya ilə “Şimal-Cənub” nəqliyyat dəhlizi üzərində işləyirik. İşlərin bizə aid olan hissəsi artıq başa çatıb. Bu dəhliz tam işə düşəndən sonra Naxçıvan dəmir yolu ilə İran vasitəsilə Azərbaycanın əsas hissəsi ilə də birləşəcək. Biz bu layihəni sürətləndirmək istəyirik ki, tezliklə bu, baş versin. Ondan sonra Naxçıvanda istehsal olunan mallar artıq dünya bazarlarına rahatlıqla çıxa biləcək və insanlar üçün bu, əlbəttə ki, əlavə imkanlar yaradacaq”.

Həmin layihənin icrası blokada çətinliklərini aradan qaldıracaq, Naxçıvanın inkişafını daha da sürətləndirəcəkdir. Ölkə başçısının səsləndirdiyi bu fikirlər bir daha göstərdi ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan Prezidentinin daim diqqət mərkəzindədir. Ulu öndərimiz Heydər Əliyev Naxçıvana daim böyük diqqətlə yanaşırdı, cənab İlham Əliyev də bu siyasəti davam etdirir.



Dövlət başçısının diqqət və qayğısı, naxçıvanlıların vətənpərvərliyi sayəsində muxtar respublikamız artıq uğurlu inkişaf yolundadır. Onu bu yolundan heç bir qüvvə geri döndərə bilməz. Muxtar respublika əhalisi öz Prezidentinin qayğısını hər zaman üzərində hiss edir. Cənab İlham Əliyev Naxçıvana budəfəki səfərində də muxtar respublikaya bundan sonra da yüksək diqqət və qayğı göstəriləcəyini bəyan edib.

Müasir Naxçıvan ümummilli liderimizin görmək istədiyi kimi qurulur. Ulu öndərimiz daim Azərbaycanı, o cümlədən Naxçıvanın gələcəyini düşünür və deyirdi ki: “İstəyirəm mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin”. Bu gün biz hamımız ümummilli liderimizin bu arzu və istəklərinin yerinə yetirilməsinin şahidləriyik.

Xalqımızın böyük oğlu Heydər Əliyev əsl vətəndaş olmaq üçün ləyaqət göstərməyi, xalq, Vətən naminə çalışmağı, Vətən sevgisini, doğma torpağa, doğma yurda bağlılığı əməli işlə nümayiş etdirməyi tövsiyə edirdi: “Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır”.

Naxçıvan Muxtar Respublikası bütün sahələrdə əsl nümunə gücünə malikdir.

Bu gün Naxçıvanda hansı sahəyə baxsaq, orada geniş islahatların aparıldığının şahidi olarıq. Bütün sahələrdə analoqu olmayan uğurlar ona görə qazanılır ki, burada həm ulu öndərimiz Heydər Əliyevin yolu sədaqətlə davam etdirilir, həm də hər kəs öz işinə məhəbbətlə yanaşır. Odur ki, dövlət başçısı Naxçıvana səfəri zamanı bu məsələni xüsusi vurğulayaraq deyib: “Abadlıq-quruculuq işləri bir tərəfdən ölkəmizin gücünü, digər tərəfdən Naxçıvan rəhbərliyinin səmərəli işini göstərir”.

**Tural SƏFƏROV**
***“Xalq qəzeti”,***
***14 yanvar 2017-ci il***

## Vətən oğlu

Əlinlə Naxçıvan qızıl don geyir,
Ağ günlər eşqinə göyə yüksəlir,
Cavidim məzardan dikəlib deyir:
Bütün varlığınla elə bağlısan,
Qədim Naxçıvanın əziz oğlusan.

Heydərin qəlbindən işıq, nur aldın,
Yurdumun köksündə körpülər saldın,
Ucalır şöhrətin, ucalır adın,
Bütün varlığınla elə bağlısan,
Qədim Naxçıvanın əziz oğlusan.

Şöhrətin sözdə yox, əməlindədir,
Yurdumun sevinci əllərindədir,
Sən Vətən oğlusan, xalq səninlədir,
Bütün varlığınla elə bağlısan,
Qədim Naxçıvanın əziz oğlusan.

Rövşən HÜSEYNOV



# NAXÇIVAN:
# ötən il uğurlara yeni uğurlar əlavə olundu

*Ötən ilin uğurları göstərdi ki, böyük yaradıcı gücə malik olan Heydər Əliyev ideyalarının, Heydər Əliyev quruculuq xəttinin davam etdirilməsi və yurda bağlılıq prinsipi əsas götürülərək Naxçıvan bütün sahələrdə inkişafı ilə nümunə göstəriləcək bir muxtar respublika səviyyəsinə yüksəlib. Burada ölkə başçısı cənab İlham Əliyevin muxtar respublikaya səfərlərinin birində söylədiyi bu fikirləri xatırlamaq yerinə düşər:* ***"...Bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. Bir daha qeyd etmək istəyirəm ki, siz bütün məsələləri – quruculuq, abadlıq işlərini, enerji təhlükəsizliyi, hərbi potensial, infrastruktur layihələrinin icrası, ərzaq təhlükəsizliyi məsələlərini həll etmisiniz. Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır".***

Bəli, 2016-cı ildə uğurlar üzərinə uğurlar əlavə olundu. Ötən illərdəki kimi, 2016-cı ildə də üç prinsip əsas götürüldü: muxtar respublika sakinlərinin rahat yaşaması, regionda təhlükəsizliyin təmin edilməsi, iqtisadi və sosial həyatın bütün sahələrində tərəqqi və inkişaf tempinin qorunub saxlanılması. Bəhs olunan qısa zaman kəsiyinin muxtar respublikamızda "Nizam-intizamın daha da möhkəmləndirilməsi ili" elan olunması bu məqsədə çatmaqda əhəmiyyətli rol oynadı, görülən işə görə məsuliyyət hissi daha da artdı.

2016-cı il hansı hadisələrlə yadda qaldı? Hər il olduğu kimi, bəhs edilən dövrdə də müxtəlif kənd yaşayış məntəqələrində şəhər rahatlığının yaradılması davam etdirilib, müasirləşən kəndlər sırasına Kəngərli rayonunun Yurdçu, Babək rayonunun Xəlilli,Yarımca, Məzrə, Hacıvar, Badaşqan, Şərur rayonunun Oğlanqala, Arbatan, Şahbuz rayonunun Daylaqlı, Kiçikoba, Culfa rayonunun Saltaq, Gülüstan, Xanəgah, Ordubad rayonunun Baş Dizə, Naxçıvan şəhərinin Bulqan kəndləri də qoşulub. İçməli su sarıdan əziyyət çəkən kəndlərimizə su xətləri çəkilib. Bu böyük quruculuq tədbirləri barədə danışanda "Şərq qapısı" qəzetinin 1994-cü ildə dərc olunan saylarında bəzi problemlərdən ürəkağrısı ilə bəhs edilən yazılar yadıma düşür. Naxçıvan şəhərinin Qaraçuq kəndindən olan bir müəllimin qələmə aldığı yazıda oxuyuruq: "Yazıq camaat indi gözünü dikib kolxozun bir sınıq traktoruna. O da ki, bəzən işləyir, bəzən işləmir, bəzən də yanacağı olmur. İşləyəndə isə arxasına qoşduğu çənlə 15-20 gündən bir su paylaya bilir. Amma həmin sudan da kənar məhəllələrin, təzə məhəllələrin sakinləri içə bilmir. Çünki yollar elə bərbad vəziyyətdədir ki, bu yollarda traktorlar belə, hərəkət etməyə çətinlik çəkir. Bilmirəm daha nəyi deyim, necə deyim ki, bu camaata ürəyi yanan tapılsın. Vallah elə ki, traktorun səsi eşidilir, qab-qacaq zənqiltisı adamların səsinə qarışır. Su çəninin krantına azı 25-30 əl birdən uzanır. Kimin ki, bir babət gücü var, bu gücün hesabına vedrələrini doldura bilir. Fağırlar, zəiflər isə baxa-baxa qalırlar. Bütün bu acı mənzərəni həm kəndin, həm hər iki təsərrüfatın rəhbərləri, həm də əlaqədar təşkilatların başçıları yaxşı görürlər. Amma heç kimin vecinə deyil".

İndi həmin xoşagəlməz mənzərələrdən o kənddə əsər-əlamət qalmayıb. Yollara asfalt örtük salınıb, yeni sosial obyektlər tikilib istifadəyə verilib. 2016-cı ildə bu kəndə içməli su xətti çəkilib. Bir zamanlar Araz çayının suyunun ərimsini həsrətlə gözləyən kənd sakinlərini artıq sərt qış qorxutmur. Qışda da, yayda da həyətlərdən gur sular axır. Qeyd edim ki, 2016-cı ildə Naxçıvan şəhərinin Tumbul, Bulqan və Qaraxanbəyli kəndlərində içməli su və kanalizasiya şəbəkəsi, Culfa rayonunun Gülüstan kəndində içməli su sistemi istifadəyə verilib.

Yeni torpaq sahələrinin əkin dövriyyəsinə cəlb olunması üçün görülən tədbirlər də diqqət mərkəzində saxlanılıb. Ötən il Babək rayonunda yeni nasos stansiyasının, həmin rayonun Kərimbəyli və Kültəpə kəndlərində 217 hektar yeni torpaq sahəsinin əkin dövriyyəsinə qatılmasını təmin edən suvarma şəbəkəsinin, Şərur rayonunun Xanlıqlar, Vərməziyar və Ələkli kəndlərində 589 hektar sahənin su təminatını yaxşılaşdırmağa imkan verən suvarma boru xəttinin, Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərində 117 hektar ərazini əhatə edən qapalı suvarma şəbəkəsinin tikintisinin başa çatdırılması suvarma suyuna olan tələbatın ödənilməsinə imkan verib.

2016-cı ilin fevral ayında Naxçıvan Biznes Mərkəzində sahibkarlarla işgüzar, may ayında isə ərzaq məhsulları ilə mərkəzləşdirilmiş qaydada təmin olunacaq dövlət müəssisə və təşkilatlarının rəhbərləri və sahibkarlarla görüşlərin keçirilməsi sahibkarlığın inkişafına hesablanmış mühüm tədbirlər kimi yadda qalıb. Bu dövrdə 47 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlayıb, ümumi daxili məhsul istehsalında özəl bölmənin xüsusi çəkisi 87 faizi ötüb.

Ötən il məktəb binalarının tikintisi sürətlə davam etdirilib, müasir avadanlıqlarla təchiz olunan 3414 şagird yerlik 12 məktəb binası istifadəyə verilib. Yeni quruculuq ünvanları sırasına 380 şagird yerlik Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin, Naxçıvan Dövlət Texniki Kollecinin və Ordubad Texniki Peşə və Sürücülük Məktəbinin binaları əlavə olunub.

Bu gün Naxçıvan turizm üçün ən ideal məkanlardan biridir, – desək, yanılmarıq. Çünki turist o yerə ayaq basır ki, orada əmin-amanlıq, sabitlik olsun. Bundan başqa, iqtisadi inkişaf, zəngin tarixi-mədəni irs, ekoloji cəhətdən təmiz qida məhsulları hər bir turistin diqqətini cəlb edir. Təbii ki, bu sahənin inkişafı üçün həyata keçirilən tədbirləri də xüsusilə qeyd etmək lazımdır. Elə ötən il mart ayının 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı müşavirə keçirilməsi, turizmin düzgün təbliği və təşviqi üçün aid təşkilatların üzərinə konkret vəzifələr qoyulması bu sahənin inkişafına böyük təkan olub. Turistlərə yüksək xidmət üçün ötən il mayın 2-də Naxçıvan şəhərdaxili turist marşrutu fəaliyyətə başlayıb. Bu müddət ərzində turistlər marşrut üzrə Naxçıvan şəhərinin tarixi abidələri, mədəniyyət obyektləri, görməli yerləri və müasir inkişafı ilə yaxından tanış olublar. Bir məsələni də qeyd edək ki, həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, 2015-ci illə müqayisədə muxtar respublikaya gələn turistlərin sayı artaraq 403 mini keçib.

Turizmin inkişafında keçirilən festivalların da rolu az olmayıb. Bəhs olunan il festival ili kimi yadda qalıb. Bir zamanlar Naxçıvanı yadelli hücumlarından qoruyan qalalarımız bu gün Naxçıvanın müasir mədəniyyətinin qoruyucusuna çevrilib. "Əlincəqala" tarixi abidəsində "Naxçıvan – bəşəriyyətin beşiyi" III Beynəlxalq Rəsm, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Göycə", "Naxçıvan çörəkləri", "Plov", "Yallı", "Arıçılıq məhsulları və bal" festivallarının keçirilməsi muxtar respublikaya marağı daha da artırıb. Həm də bu tədbirlərin dünyaya bir ismarıcı olub. Ermənilər bir gün mahnılarımızı oğurlayır, bir gün xalçamızın surətini istehsal edirlər. Abidələrimizi özlərinin adlarına çıxmağa çalışırlar, başqa mədəni sərvətlərimizə göz dikirlər. 2016-cı ildə keçirilən festivallarla Naxçıvan milli sərvətlərinə necə sahib çıxdığını sübut etdi.

2016-cı ilin əvvəllərində Naxçıvan-Batumi-Naxçıvan beynəlxalq avtobus marşrutunun, ilin son günlərində isə Naxçıvan-Təbriz-Tehran-Məşhəd sərnişin qatarının fəaliyyətə başlaması dövlətlərarası və xalqlararası münasibətlərin inkişaf göstəricisi kimi yadda qaldı.

Deyirlər kimliyini bilmədən, keçmişini tanımadan gələcəyi qorumaq özülsüz qala ucaltmağa bənzəyir. Ulu öndər çıxışlarının birində həmin məsələyə xüsusilə toxunaraq deyib: ***"Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi barədə çox az iş görülübdür".*** Bu gün muxtar respublika ərazisində aparılan tədqiqatlar, əldə olunan elmi nəticələr, mühüm elmi nəşrlərin hazırlanması ulu öndərin arzularının gerçəkləşməsi, Naxçıvanın qədim tarixinin öyrənilməsi sahəsində qarşıya qoyduğu vəzifələrin uğurla yerinə yetirilməsinin göstəricisidir. 2016-cı ildə Əlincəqalada bərpa işləri başa çatdırılıb, "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi yaradılıb. Memarlığın nadir incilərindən sayılan Gülüstan türbəsinə də belə qayğıdan pay düşüb. Şərur rayonunun Xanlıqlar kəndindəki "İmamzadə" dini-tarixi abidəsində yenidənqurma işləri aparılıb. "Naxçıvan qalaları: tarixdə və günümüzdə" mövzusunda beynəlxalq konfransın keçirilməsi isə tariximizin öyrənilməsi və təbliği işinə çox mühüm töhfə olub. Bundan başqa, Naxçıvan tarixi ilə bağlı ölkə arxivlərində aşkar edilən yeni sənədlərin Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsinə təqdim olunması bu istiqamətdə həyata keçirilən tədbirlərin davamlı xarakteri aldığının göstəricisi kimi dəyərləndirilməlidir.

Mənzil insanın rahat yaşayışını, sağlamlığını və ailə xoşbəxtliyini təmin edən əsas amillərdən biridir. Muxtar respublikada tikinti sektorunun əsas istiqamətlərindən birini də əhalinin yeni mənzillərə olan tələbatını ödəmək təşkil edir. 2016-cı ildə də Naxçıvan şəhərində, rayon mərkəzlərində bir neçə yaşayış binası əsaslı təmir olunub, mənzillərin sahəsi genişləndirilib, binaların təməli möhkəmləndirilərək əlavə mərtəbələr artırılıb, binalar müasir kommunikasiya xətləri ilə təmin edilib. Bəhs edilən dövrdə 2 ictimai yaşayış binası tikilərək istifadəyə verilib, 9 yaşayış binasında yenidənqurma və əsaslı təmir işləri aparılıb. O da xüsusi vurğulanmalıdır ki, sosial qayğıya ehtiyacı olanların mənzillə təmin edilməsi də diqqət mərkəzində saxlanılıb, 4 şəhid ailəsinə və sağlamlıq imkanı məhdud 7 Azərbaycan Vətən Müharibəsi iştirakçısına yeni mənzillər verilib. Ötən il gənc ailələrin mənzillə təmin olunmasına kömək məqsədilə "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin yaradılması gənclərimizin böyük sevincinə səbəb olub. Qısa zamanda fondun xətti ilə gənclərə 951 min manat həcmində kreditlərin verilməsi təmin edilib.

Muxtar respublikada təsadüfən, yaxud özünü idarə edə bilməmək ucbatından cinayət və ya qanun pozuntusu törətmiş şəxslərin yenidən cəmiyyətə qaytarılması üçün görülən tədbirlər 2016-cı ildə də davam etdirilib. Belə ki, fevral ayında Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində yeni yaradıcılıq və istehsalat binasının istifadəyə verilməsi bu funksiyanın yerinə yetirilməsi məqsədi daşıyıb. Bu, muxtar respublikada insan amilinə nə qədər dəyər verildiyinin göstəricisi kimi qiymətləndirilir.

*2016-cı ilə qısa bir nəzər saldıq. Yola saldığımız digər illər kimi, 2016-cı ildə də görülən işlər barədə fəxrlə, qürurla söhbət açılacaq. 2017-ci ilin ilk ayı isə muxtar respublika üçün daha əlamətdar oldu. Azərbaycan Prezidentinin muxtar respublikaya səfəri, burada görülən işlərə yüksək qiymət verməsi sevincimizə sevinc, qürurumuza qürur qatdı. Naxçıvan bundan sonra da inkişaf yolu ilə gedəcək, böyük qələbələrə imza atacaqdır. Ən böyük uğur isə, sözsüz ki, dövlətçilik irsimizin bundan sonra da qorunması və yaşadılması olacaqdır.*

**Sara ƏZİMOVA**


ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 37